## *İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏHSİLƏ TƏTBİQİ*

UOT 37.01

***Ruhiyyə Zahid qızı Mehdiyeva***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# FƏNLƏRİN TƏDRİSİ ZAMANI İNTERNET TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN TƏLİMİN KEYFİYYƏTİNƏ TƏSİRİ

***Ругия Захид гызы Мехтиева***
*диссертант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ВЛИЯНИЕ ИНТЕРНЕТ-ТЕХНОЛОГИЙ НА КАЧЕСТВО ОБУЧЕНИЯ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ПРЕДМЕТОВ

***Rugiya Zahid Mehtiyeva***
*doctoral student in the programm of a Ph.D*
*Institute of Education of the Republic of Azerbaijan*

# THE İNFLUENCE OF INTERNET TECHNOLOGİES ON THE QUALİTY OF EDUCATİON İN THE PROCESS OF TEACHİNG SUBJECTS

**Xülasə:** Məqalədə təlimin keyfiyyətinin yüksəldilməsi, təhsilalanların bilik və bacarıqlarının inkişaf etdirilməsi yolları və vasitələr araşdırılmış, bu işdə internet texnologiyalarının imkanları təhlil edilmişdir. Nümunə kimi daha populyar olan sosial şəbəkələrin bəziləri araşdırılaraq onların təyinatları müəllimlərin nəzərinə çatdırılmışdır. Müəllimlərə kömək məqsədilə tədris prosesində istifadə olunması tövsiyə olunan veb-alətlər cədvəl şəklində verilmişdir.
***Açar sözlər:*** *bloqlar, viki mənbələr; video konfrans, veb-resurs, e-mail, skype,facebook, twitter*

**Резюме:** В статье рассмотрены пути и методы развития мотивации, как один из важных компонентов деятельности образования. В качестве примера отмечена практика в нашей Республике, рассмотрены и доведены до педагогов популярные сайты. С целью помощи педагогам в процессе обучения рекомендованы веб-инструменты в форме таблицы.
***Ключевые слова:*** *блоги, источники вики; видеоконференции, веб-ресурс, электронная почта, скайп, фейсбук, твиттер*

**Summary:** The ways of building motivation as an important component of the learning process have been investigated; the techniques of informational communication opportunities have been analyzed in this article. As an example the experience of our republic mentioned, some of the popular social networks presented to the teachers. Recommended web-tools are given in a schedule for use in the educational process in order to help teachers
***Keywords:*** *blogs, viki sources; video conferencing, web resource, e-mail, skype, facebook, twitter*

Ölkəmizdə aparılan islahatların, təhsil quruculuğunun indiki mərhələsində əsas diqqət qarşıya qoyulan vəzifəyə uyğun olaraq təhsilin məzmununun yeniləşməsinə, müasir pedaqoji texnologiyalar və İKT əsasında həyata keçirilməsinə yönəlmişdir.

Artıq tədrisin ənənəvi texnologiyaları öyrədənə hazırkı iqtisadi şərtlərlə yaşamağa qa-

dir olan şagirdlər hazırlamağa imkan verəcək bacarıqları nəzərdə tutmur. Buna görə də müasir öyrədənin İKT üzrə kompetensiyası məsələsi aktual olaraq qalmaqdadır.

Qabaqcıl pedaqoqlar dünya təcrübəsinə əsaslanaraq yeni pedaqoji texnologiyaların şəxsiyyətə yönəlmiş təlim, fəal idrak, inkişafetdirici təlim, qabaqlayıcı təlim, əməkdaşlıq, dialoji təlim prinsiplərini tədris prosesinə gətirmişdir. İnnovasiyalarla əlaqədar olaraq biliyin düzgün mənimsənilməsi, müasir təlim prinsipləri, təlim metodlarından səmərəli istifadə olunması pedaqoji texnologiyalardan faydalanmanın əsas istiqamətləri ilə bağlıdır. Həmin texnologiyalardan bəhrələnən müəllimin novatorluğu, onun yenilikçi kimi dünya təcrübəsinə əsaslanaraq yeni tədris metodları və dərs tiplərini müəyyənləşdirməsi təhsilin səviyyəsinin yüksəldilməsində əhəmiyyətli rol oynaya bilər.

Müasir dövrümüzdə təhsil təlimdə kəsilməzliyi, distant və mobilliyi, texnoloji və layihəliliyi, interaktiv və dialoqluluğu tələb edir. Bütün bunları isə internet texnologiyalarının köməyi ilə reallaşdırmaq mümkündür.

Hazırkı dövrdə yeni təhsil paradiqmasına görə şagird yeni biliklərin alınmasını kəsilməz yolla almalı, məntiqi təfəkkür tərzinə malik olmalı, vərdişləri sərbəst qazanmalıdırlar. Elmi biliklər üzrə informasiya axınının ildən-ilə həcmi artdığından informasiya resurslarının təhlili əsasında təlim üçün lazımi informasiyaların seçilməsi problemi qarşımızda durur. Ona görə də müəllimin rolu artıq dəyişir. XXI əsrin müəllim müəyyən həcmdə yeni informasiyaların biliyə çevrilməsi üçün translyasiyaedici deyil, naviqator, bələdçi rolunu oynamalıdır. Müasir tədris metodiki vəsaitlər kompleksi də artıq ənənəvi formada deyil, əsasən aşağıdakı mənbələr əsasında formalaşdırılır [1]: *bloqlar, viki kimi açıq mənbələr; video konfrans və seminarlar; kitablar və tədqiqatlar; müxtəlif media-obyektlər.*

Təhsilverənlər üçün tədris işinin təşkilində ən yaxşı alətlərdən biri müəllimlərin bloqudur. Bloqların səhifələrində online rejimində kollektiv işi təşkil etmək və onu [2]:

- *Veb-resurs, müəllimin metodiki işləri;*
- *müəllim və şagirdlərin ev tapşırıqları;*
- *virtual interaktiv lövhədə hazırlanan dərslər;*
- *sinifdə və evdə şagirdlərin icra edəcəyi test tapşırıqları;*
- *dərslərə aid multimedia resursları, şagirdlərlə əks əlaqə adlı istinadlarda yerləşdirmək olar.*

Öyrənənlərlə əks-əlaqə təkcə müəllimin bloqu vasitəsilə deyil, həmçinin digər resurslar (*e-mail, skype, facebook, twitter və s.)* vasitəsilə dəola bilər. Hal-hazırda təhsilalanlar arasında daha populyar olan sosial şəbəkələr facebook, twitterdir.

İnternetdə mətn, qrafik, video və s. kimi tədris materiallarının yayılması üçün kifayət qədər sosial servislər var. Bunlardan daha populyar olanlardan bir neçəsini araşdıraq və təyinatlarını nəzərdən keçirək:

*YouTube* (http://youtube.com/) və *TeacherTube* (http://www.teachertube.com/) sosial servisləri var ki, onlar rəqəmsal videoyazılışların saxlanılması, baxılması və müzakirəsi üçündür. Bu servislər bütün istifadəçilərə öz videofayllarını yaymaq və digərləri ilə öz fikirlərini bölüşmək imkanı verirlər.

Digər iki servis: *Picasa* (http://picasa.google.com/) və *Flickr* (http://www.fli-ckr.com/) istifadəçilərə müxtəlif şəkillərə giriş və onlara baxışın təşkili üçün şərait yaradır.

*Slideshare* (http://www.slideshare.net) servisi Flash formatında olan PowerPoint təqdimatlarının yerləşdirilməsinə imkan verən çox əlverişli servisdir. İstənilən açar sözdən istifadə etməklə siz buradan istənilən mövzuya aid təqdimatlar tapa bilərsiniz. Eyni zamanda, prezentasiyalara (təqdimatlara) tam ekranlı rejimdə baxmaq imkanı da var.

*Bubbl* (http://bubbl.us/), Mindomo (http://mindomo.com/) və *Mindmeister* (http://mindmeister.com/) veb-servisləri layihələr üzərində işləyərkən onun planının tərtib edilməsi zamanı informasiyaları sistemləşdirməyə və vizuallaşdırmağa kömək edir.

*Prezi* (http://prezi.com/) veb-servisinin köməyilə qeyri-xətti, çoxsəviyyəli prezentasiyaları asan hazırlamaq olur. Bütün təqdimatlar bir böyük vərəqdə yerləşdirilir ki, bu da onu dinamik miqyasda bu vərəq üzərində səyahət etməklə nümayiş etdirməyə imkan verir.

Müasir İnternet texnologiyaları müxtəlif fayl və qovluqların saxlanılması üçün külli miqdarda imkanlar təqdim edir. Bu halda sizin fayl-

lar serverdə ayrılmış xüsusi yerdə saxlanılır ki, siz həmişə internet vasitəsilə onu əldə etmək və onunla işləmək imkanı qazanırsınız. Faylların belə online saxlanmasının üstünlüyü ondadır ki, həmin faylı istənilən kompüterdən əldə edə bilirsiniz, fayl etibarlı qorunur, onu göndərmək və yaymaq asan olur.

Daha çox istifadə olunan online saxlama servisləri bunlardır:

*DropBox* (https://www.dropbox.com); *Clip2Net* (http://clip2net.com); *Box* (http://box.net); *MoeMecmo* (http://www.moe-mesto.ru)

Müxtəlif layihələrin işlənməsində *GoogleDocs* (http://www.google.com/ google-d-s/intl/ru/tour1.html) veb-servisi daha rahatdır. Burada öz qovluğunu yaradıb, ona öyrənənlərin, dostların, həmkarlarının daxil olmasına icazə imkanı (Share) vermək olar. Bu təkcə mətnlərə deyil, həm də təqdimatlara, cədvəllərə və müxtəlif google-formalara aiddir.

Tədris fənləri üzrə testlərlə online yoxlama aparmaq üçün *MegaTestPro* (**Ошибка! Недопустимый объект гиперссылки.**) və Psylist.net (http://psylist.net /testzna/) veb-servisləri yaxşı imkanlar yaradır. İnternetdə müxtəlif məsələlərin həllinə kömək edə bilən belə sosial servislərin sayı gündən-günə artır.

Müəllimlərə kömək məqsədilə tədris prosesində istifadə olunması tövsiyə olunan veb-alətləri aşağıdakı kimi cədvəl şəklində vermək olar:

| | | |
|---|---|---|
| *İdraki məqsədlərin Taksonomiyası* | *Şagirdlərin fəaliyyətini müəyyənləşdirən tapşırıqlar* | *Veb-alətlər* |
| Yaratma | Oyunun düşünüb hazırlanması;<br>Planın işlənib hazırlanması;<br>İnkişaf ssenarisinin yazılması. | http://www.google.com/google-d-s/intl/ru/tour1.html<br>http://inf66.blogspot.com/<br>http://www.scribblar.com/ |
| Qiymətləndirmə | Sıralama və əsaslandırma;<br>Vəziyyətin ekspertizasının aparılması;<br>Mümkün qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsi. | http://vorbeo.com/<br>http://www.google.com/google-d-s/intl/ru/tour1.html |
| Təhliletmə | təsnifatın qurulması;<br>fikirlərin müqayisəsi;<br>əsas xassələrin siyahısının tərtibi. | http://www.google.com/google-d-s/intl/ru/tour1.html<br>http://inf66.blogspot.com/<br>http://www.scribblar.com/ |
| Tətbiqetmə | Qrafiki təsvirlərin hazırlanması;<br>təqdimatların işlənilib hazırlanması və yoxlanılması;<br>verilənlərə əsasən hesablama. | http://www.google.com/google-d-s/intl/ru/tour1.html<br>http://inf66.blogspot.com/<br>http://www.scribblar.com/ |
| Anlama | əlaqələrin göstərilməsi;<br>səbəblərin izahı;<br>şərh etmə;<br>nümunə göstərmə. | http://www.google.com/google-d-s/intl/ru/tour1.html<br>http://inf66.blogspot.com/<br>http://www.scribblar.com/<br>http://prezi.com/<br>https://picasaweb.google.com/lh/myPhotos |

| | | |
|---|---|---|
| Bilmə | birgə qruplaşdırma;<br>anlayışların siyahısının tərtibi;<br>müəyyən ardıcıllıqla düzmə. | http://www.google.com/google-d-s/intl/ru/tour1.html<br>http://inf66.blogspot.com/<br>http://www.scribblar.com/<br>http://twitter.com<br>http://www.facebook.com |

Buradan belə bir nəticəyə gəlmək olar ki, XXI əsrin müəlliminin pedaqoji-psixoloji fəaliyyətinin məzmunu dəyişir. Təhsilverənlər özləri artıq İKT vasitələri ilə işləmək bacarıqlarına malik olmalıdırlar ki, təhsilalanlara da bu kimi bacarıqları aşılaya bilsinlər. Ona görə də, onlara bu sahədə dəstəyin göstərilməsi və davamlı olması vacibdir. Bunun üçün keyfiyyətli İKT təlimlərin keçirilməsi, ixtisasın artırılması və metodiki materialların işlənib hazırlanması və sair bu kimi işlərin görülməsinə ehtiyac vardır.

**Problemin aktuallığı.** Ölkəmizdə təhsil islahatı ilə əlaqədar qəbul edilmiş müxtəlif dövlət proqramları çərçivəsində ümumtəhsil müəssisələrinin böyük əksəriyyəti İnternet şəbəkəsinə qoşulub. Bu bir tərəfdən İnternet şəbəkəsinin köməyi ilə məktəblərimiz açıq informasiya məkanına daxil olmaq tələbatını təmin edir, digər tərəfdən onlar təhsil məqsəd və vəzifələrinin həyata keçirmək üçün imkanlar axtarmağa başlayırlar.

**Problemin yeniliyi.** Fənlərin tədrisi zamanı İnternet texnologiyalarından səmərəli və fəal surətdə istifadə edilməsi innovasiya proseslərinin tətbiq edilməsi haqqında danışmağa imkan verir. Tədris prosesində internet texnologiyalarının istifadəsi təhsilin keyfiyyətinə müsbət təsir edir, tədris planlarının məqsəd və məzmunu, təlim forma və metodları dəyişir.

**Problemin praktik əhəmiyyəti.** Tədris prosesində internet-texnologiyalardan səmərəli istifadə təhsilverənlərə ənənəvi dərs strukturunun çərçivəsindən çıxmağa, öyrənənlərdə yaradıcılıq qabiliyyəti və bacarıqlarının inkişaf etdirmələri üçün əlavə imkanlar verəcək.

**Ədəbiyyat:**

1. Лаборатория тренера. ИКТ и новые педагогические технологии. http://ljudmillar.blogspot.com/;
2. Интернет в образовании: путеводитель, НИИ Управления знаниями, МЭСИ, http://www.slideshare.net/mnrozhkov/ss-4319215;4.

**E-mail**: ruhi_mehdi@mail.ru
**Rəyçilər**: *ped. ü. fəls. dok.* **İ.B. Əmirəliyeva**
*ped. ü. fəls. dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 01.10.2018